“Tədris materiallarının yazılması” mövzusunda keçirilən seminarın məqsədi təbiət fənlərini tədris edən müəllimlərin interaktiv tədris metodlarından istifadəsi üzrə peşəkar qabiliyyətlərini inkişaf etdirmək, müxtəlif tələbə yönümlü öyrətmə və öyrənmə üsullarını birləşdirən mövzu dəstlərinin işlənib hazırlanması ilə onları tanış etməkdir.

Seminarda Azərbaycan Müəllimlər İnstitutu və onun 11 filialı, Azərbaycan Dövlət Pedaqoji, Bakı, Gəncə, Sumqayıt, Lənkəran Dövlət Universitetləri, eləcə də Bakı, Gəncə, Sumqayıt şəhər, Lənkəran və Salyan rayon ümumtəhsil məktəblərindən seçilmiş 52 nəfər layihə iştirakçısı- təbiət fənlərini tədris edən müəllim, metodistlər iştirak edib.

Seminarın son günü təntənəli mərasim keçirilib və layihə iştirakçılarına sertifikatlar paylanılıb.

Tədbirdə Təhsil Nazirliyi, BP-nin Azərbaycan üzrə rəhbər nümayəndələri, “British Council”-un direktoru xanım Nikol lə Os de Laluvye və media nümayəndələri iştirak edib.